Heydər ƏLİYEV:

Gün gələcək, Azərbaycan dünyaya günəş kimi doğacaq

Aydın QASIMOV,
Hüquq elmləri doktoru, professor.

Bütün şüurlu həyatını Vətəninə, canından artıq sevdiyi millətinə həsr etmiş ulu öndər xalqının bu tükənməz sevgisini özünün cahanşümul əməlləri ilə qazanaraq, hələ sağlığında ikən canlı əfsanəyə çevrilmişdir. Bu nadir düha milli dəyərlər zəminində çağdaş dövlətçilik sistemimizin əsaslarını yaradaraq, müstəqilliyimizi dönməz və əbədi etmişdir. Belə bir fövqəladə missiyanı müvəffəqiyyətlə həyata keçirmiş tarixi şəxsiyyət kimi Heydər Əliyev xalqının siyasi və dövlətçilik şüurunda ümummilli lider zirvəsini fəth etmiş qüdrətli dövlət xadimidir.

Tarixi təcrübə göstərir ki, dövlətlərin və xalqların taleyində lider şəxsiyyətlərin böyük rolu var. İstər bugünkü müasir Amerika, istər inkişaf etmiş Avropanın tarixində bu cür nümunələr kifayət qədərdir və şəxsiyyətlərin dövlətlərin formalaşmasında və inkişafında, o cümlədən xalqların özünütəsdiqindəki xidmətləri daim politologiyanın müzakirə mövzusu olaraq qalır. Bu gün lider olaraq xatırlanan tarixi şəxsiyyətlər hər bir ölkədə onilliklər, yüzilliklər ötsə belə, ehtiramla xatırlanır, onların irsinə hər zaman müraciət olunur.

Zaman keçdikcə Heydər Əliyev dühasının əzəməti, onun böyüklüyü, Azərbaycan xalqı və müstəqil dövlətçiliyimiz üçün göstərdiyi misilsiz, təkrarolunmaz xidmətləri daha aydın və qabarıq şəkildə nəzərə çarpır. Heydər Əliyev yalnız Azərbaycan xalqının deyil, bütövlükdə müsəlman-türk dünyasının bu günədək gəlmiş-keçmiş görkəmli öndərlərindən biridir. Heydər Əliyev tarixin gedişatını dəyişə bilən, yeni tarix yaradan dövlət xadimi idi. Onu Mustafa Kamal Atatürklə, Uinston Çörçillə, Den Syaopinlə müqayisə etmək olar. Qədim dövlətçilik tarixinə malik olan Azərbaycana zaman-zaman böyük dövlət xadimləri, sərkərdələr, siyasətçilər rəhbərlik etmişlər. Lakin Heydər Əliyev qədər Azərbaycan tarixində mühüm rol oynayan, xalqına, millətinə və dövlətçiliyinə xidmətlər göstərən, onun inkişafı üçün sözün tam mənasında xilaskarlıq missiyasını yerinə yetirən ikinci dövlət xadimini təsəvvür etmək çox çətindir.

Ulu öndər respublikamıza rəhbərlik etdiyi hər iki hakimiyyəti dövründə xalqı üçün gördüyü taleyüklü işlərin əhəmiyyətinə görə Azərbaycanın bütün dövlətçilik tarixində heç kimlə müqayisə olunmayan böyük dövlət xadimidir.

Həyatı daim xalq və haqq yolunda mübarizədə keçən Heydər Əliyev məhz özünün fitri istedadı, yüksək intellekti, fenomenal yaddaşı, rəhbərlik məharəti, cəsarəti, mərdliyi, güclü iradəsi, idarəçilik mədəniyyəti, böyük həyat və dövlətçilik təcrübəsi ilə bütün bu çətinliklərin öhdəsindən ləyaqətlə gəlmiş, Azərbaycan dövlətini məhv olmaq təhlükəsindən xilas etmiş, ölkəmizi iqtisadi tənəzzüldən inkişaf və tərəqqi yoluna çıxartmışdır. Heydər Əliyev bütün varlığıyla Azərbaycan xalqına, müstəqil Azərbaycan dövlətçiliyinə bağlı idi və o, lazım gələrsə, həyatını belə bu yolda əsirgəməzdi. Ulu öndərin keçdiyi zəngin və şərəfli həyat yolu, xalqımızın mənafelərini qorumaq üçün bütün dövrlərdə apardığı qətiyyətli mübarizələr, gördüyü işlər, nümayiş etdirdiyi siyasi iradə və Azərbaycanın həqiqi müstəqilliyi yolunda göstərdiyi misilsiz fədakarlıqlar bunun əyani sübutudur. Məhz bütün bunların nəticəsidir ki, həyat fəaliyyətinə dövlət təhlükəsizlik orqanlarında gənc bir əməkdaş kimi başlayan Heydər Əliyev müstəqillik dövründə nəinki Azərbaycan xalqının və bütün dünya azərbaycanlılarının, eləcə də türk dünyasının lideri səviyyəsinə yüksəldi. Azərbaycanın dövlətçilik tarixinə qızıl hərflərlə yazılan Heydər Əliyev epoxası bir insan ömrünə sığışmayan və hər kəsə nəsib olmayan əlçatmaz zirvə və təkrarolunmaz taledir.

Azərbaycanın çağdaş tarixi dünya şöhrətli siyasətçi, dövlət xadimi, ümummilli lider Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Ulu öndər müstəqil Azərbaycan dövlətinin qurucusu və bəşəriyyətin yetirdiyi ən böyük şəxsiyyətdir. Keçmiş Sovet İttifaqı kimi böyük bir dövlətin zəngin iqtisadi potensialından və geniş imkanlarından istifadə edərək respublikanı tərəqqi yoluna çıxaran Heydər Əliyev yeni və mütərəqqi sənaye sahələrinin yaradılması istiqamətində mühüm tədbirlər həyata keçirmişdir. Həmin illərdə respublikanın bütün bölgələrinin inkişafı, istehsalla bilavasitə bağlı olan elmi-tədqiqat sahələrinin genişləndirilməsi sahəsində kompleks tədbirlər görülmüş, elmi-texniki tərəqqinin nailiyyətləri, mütərəqqi texnologiyaların istehsalatda tətbiqi Azərbaycanın keçmiş ittifaq miqyasında öncül mövqelərə çıxmasına, ölkənin sosial-iqtisadi həyatında yüksəlişə təkan vermişdir. Ulu öndər Azərbaycanın işıqlı və parlaq gələcəyini görür, xalqımızı bu gələcəyə hazırlayır, respublikanın iqtisadi potensialını gücləndirirdi. O illərin canlı şahidi olan orta və yaşlı nəslin nümayəndələrinin yaxşı xatirindədir ki, Azərbaycan bütün sahələrdə sıçrayışa necə sürətlə nail olmuşdur. Sonralar müstəqil dövlət quruculuğuna açılan yol əslində 1969-cu ildən — Heydər Əliyevin respublika rəhbəri seçildiyi vaxtdan başlamışdır.

Azərbaycanın müasir tarixinin 45 ildən artıq bir dövrü ümummilli lider Heydər Əliyevin şərəfli adı və möhtəşəm dövlətçilik fəaliyyəti ilə sıx bağlı olmuşdur. Həmin dövrdə xalqımızın əldə etdiyi nailiyyətlərdə, respublikamızın ictimai-siyasi, iqtisadi və mədəni həyatındakı uğurlara imzasını atan Heydər Əliyev fədakarlıqla çalışdığı, zəngin tarixi və mənəvi dəyərləri ilə daim fəxr etdiyi millətinin önündə həmişə cəsarətlə addımlayaraq müasir dövlətçiliyimizin banisi və qurucusu olaraq ulu öndər kimi yüksək zirvəyə ucalmışdır. Ulu öndərimizin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi dövr quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olub. Heydər Əliyevin Azərbaycan iqtisadiyyatının inkişafındakı xidmətləri özünü hələ sovet dövründə göstərib. Azərbaycan əsrin sonunda Heydər Əliyevin sayəsində ən irimiqyaslı iqtisadi layihələrin reallaşması mərkəzinə çevrilib. Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi hələ 70-80-ci illərdə təməli qoyulmuş potensiala söykənir. Məhz o illərdə ölkəmizin gələcəyi üçün çox mühüm addımlar atılıb. İnfrastruktur yeniləşib, neft sənayesi yenidən qurulub, nəhəng kimya və neft-kimya, kompleksləri qurulub, elmi-mədəni tərəqqiyə nail olunub, ölkəmizin iqtisadi, sosial, elmi-texniki potensialı möhkəmləndirilib. Bu gün neft potensialının reallaşmasında, Əsrin müqaviləsinin uğurla həyata keçirilməsində mühüm yeri olan Dərin Özüllər Zavodu kimi dünya miqyaslı müəssisələr inşa edilib. Bununla da böyük öndərimiz hələ siyasi rəhbərliyinin birinci mərhələsində yeni inkişaf strategiyasını müəyyənləşdirib və az vaxtda onu uğurla həyata keçirib.

Bu gün Azərbaycanda həyata keçirilən böyük tədbirlər məhz Heydər Əliyevin ölməz ideyalarının həmişəyaşar, əbədi olduğunu bir daha sübut edir. Ulu öndərimizin uzaqgörənliyi, müdrikliyi və fədakarlığı bu şəxsiyyəti təkcə Azərbaycan xalqının deyil, bütün dünya azərbaycanlılarının liderliyinə yüksəldib, ömür yolu isə Vətənə xidmətin parlaq nümunəsinə çevrilib. Bütün şüurlu həyatını xalqına və Vətəninə həsr etmiş ümummilli liderimiz Heydər Əliyev Azərbaycan xalqının tarixinə müstəqilliyimizin memarı və qurucusu kimi daxil olub. Onun yorulmaz, çoxşaxəli və zəngin fəaliyyəti Azərbaycanı sürətli inkişaf yoluna çıxarıb və şübhə yoxdur ki, yaxın illərdə ölkəmiz dünyanın ən güclü dövlətlərindən birinə çevriləcək. Ümummilli liderimizin fəaliyyəti Azərbaycanın dünəni, bu günü və gələcəyinə hesablanmış fəaliyyətdir. Ulu öndər keçmişə istinad edərək bu günümüzü necə qurmağı və gələcəyimiz üçün hansı işlər görülməsinin nümunəsini bizə göstərdi. Bu, hər bir millətin inkişafında əsas şərtlərdən biridir.

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 34 il ərzində xalq üçün, vətən üçün etdiklərini bəzən adi insan təfəkküründə əhatə dairəsinə sığışdırmaq olmur. Böyük öndərimiz tariximizə xilaskar kimi daxil olub və respublikamıza rəhbərlik etdiyi hər iki dövrdə bu missiyanı çox böyük uğurla yerinə yetirib. Müasir Azərbaycan cəmiyyətinin formalaşması, müstəqil Azərbaycan dövlətinin qurulması birbaşa Heydər Əliyevin adı ilə bağlıdır. Təsadüfi deyil ki, ümummilli liderimiz azərbaycanlı olması ilə fəxr etdiyi kimi, hər bir azərbaycanlı da bu gün Heydər Əliyevin ən böyük sənət əsəri olan müstəqil, inkişaf etmiş Azərbaycanın vətəndaşı olmaqdan qürur duyur, böyük öndərə sayğı və məhəbbətini onun ideyaları ətrafında daha da sıx birləşməklə nümayiş etdirir.

XX əsrin son 30 ili və XXI əsrin başlanğıcında Azərbaycana rəhbərlik etmiş görkəmli dövlət və siyasi xadim Heydər Əliyevin rəhbərliyi sayəsində Azərbaycanın iqtisadiyyatı hər zaman möhkəmlənmiş, şöhrəti, nüfuzu yüksəklərə qalxmış, milli mənafeyi, milli mentaliteti, mədəniyyət və mənəviyyatı qorunmuş və inkişaf etmişdir. Ümummilli lider sovet hakimiyyəti dövründə respublikamızı bütün sahələrdə keçmiş SSRİ məkanında öncül yerlərdən birinə yüksəltmiş, sosial-iqtisadi və mədəni sahələr üzrə həyata keçirilən tədbirlər və uzaqgörən siyasət nəticəsində qazanılan nailiyyətlər Azərbaycanın dövlət müstəqilliyi dövrü üçün mühüm sosial-iqtisadi və mədəni baza, təməl rolunu oynamışdır. Ulu öndər fəaliyyətinin hər bir məqamı ilə xalqın, dövlətin, cəmiyyətin və onun üzvlərinin mənafeyinə xidmət edib, Azərbaycan torpağının, Azərbaycan dövlətinin, Azərbaycan xalqının bütövlüyü uğrunda fədakarlıqla çalışıb, müstəqilliyimizin möhkəmləndirilməsi, dövlətçiliyimizin inkişafı, demokratiyanın genişləndirilməsi, xalqın rifah halının daha da yaxşılaşdırılması üçün mümkün ola bilən hər bir işi görüb.1969-cu ilin iyul ayında Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilən Heydər Əliyev təşəbbüskarlığı və işgüzarlığı ilə respublika həyatının bütün sahələrində dirçəlişə nail oldu ki, bu da milli şüurun oyanışı, milli ruhun yüksəlişi və mənəvi tərəqqi üçün güclü təkan idi.

Heydər Əliyevin yaddaşı haqqında əfsanələr danışmaq olar. Bu insanda necə də dəqiq yaddaş var idi. Keçmişdə görüşdüyü, adı çətin səslənən adamların adını çəkməsi, ilin, günün dəqiq göstərilməsi, hansı mövzuda söhbət etməsi, kimə hansı tapşırığın verilməsi və s. barədə eşidəndə insan heyrətə gəlirdi.

O, məharətli natiq idi. O, sözləri o qədər ardıcıl, sistemli, təkrar etmədən, aydın, sadə, məntiqli ifadə edirdi ki, dinləyəni özünə cəzb edir, düşünməyə vadar edirdi. Onda müsahibini inandırmaq məharəti çox güclü idi, faktlara, rəqəmlərə, həqiqətə əsaslanıb danışardı. Ən əsası odur ki, o, saatlarla heç bir kağıza, yazıya baxmadan danışırdı, sözlər beynində həkk olunmuş kimi səslənirdi, nəticədə nitqi kağıza köçürülərkən, əsl ədəbi dilin təcəssümünə qibtə etməyə bilməzdin.

Heydər Əliyevin gözəl insani keyfiyyətlərini sadalamaqla qurtarmaq olmaz, o, cəsarətin, ağlın, dərin zəkanın, natiqliyin, əzəmətin... rəmzi və təcəssümü idi.

Dünya azərbaycanlılarının və bütün türk dünyasının fəxri olan Heydər Əliyevin siyasi fəaliyyətinin hər bir anı xalqının, Vətəninin taleyi ilə bağlı olmuşdur. O, respublikaya ilk dəfə rəhbərlik etdiyi 1969-1982-ci illərdə, sonralar keçmiş Sovetlər Birliyinin ali rəhbərliyində təmsil olunduğu dövrdə də Azərbaycanın tərəqqisi üçün səylərini əsirgəməmiş, lazım gəldikdə xalqının gələcək taleyi, milli mənliyi ilə bağlı məsələlərdə qətiyyət göstərərək prinsipial vətənpərvərlik mövqeyi sərgiləmişdir.

Ulu öndərin Azərbaycanda siyasi hakimiyyətə hər iki gəlişi millətimiz, ölkəmiz üçün çox mürəkkəb dövrlərə təsadüf etmişdir. Müdrik siyasətçi kimi Heydər Əliyev hər dəfə xalqının ona bəslədiyi ümidləri doğruldaraq, qarşıya çıxan, çətin görünən problemləri müvəffəqiyyətlə həll etmiş, əsl fədakarlıq və qətiyyət nümunəsi göstərmişdir.

Heydər Əliyevin 34 illik siyasi hakimiyyət dövrü milli dövlətçilik tariximizin ən parlaq səhifəsini, ölkənin tərəqqisi, xalqın təbii haqqına sahib çıxması kimi şanlı bir mərhələni əhatə edir. Onun 1969-cu ildə respublikanın rəhbəri seçilməsi ilə əsası qoyulan və mahiyyətcə gələcəyə köklənmiş inkişaf strategiyasının əsas məğzini iqtisadiyyatın tezliklə dirçəldilməsi, Azərbaycanın təbii ehtiyatlarından, iqtisadi, elmi və mədəni potensialından xalqın bəhrələnməsi üçün ən əlverişli şəraitin yaradılması təşkil edirdi.

1993-2003-cü illərdə, Heydər Əliyevin ölkədə ikinci hakimiyyəti dövründə gördüyü işlər, həqiqətən, heyrətamizdir. Bu, bir siyasi əzmkarlıq, Vətən, xalq qarşısında fədakarlıq nümunəsidir. O, xalqa arxalanaraq bütün qüvvə və bacarığını səfərbər edib ölkənin siyasi varlığı üçün real təhlükəyə çevrilmiş dövlət və hakimiyyət böhranına son qoydu. Vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı. Ordu quruculuğu istiqamətində məqsədyönlü addımlar atdı. Separatizm meyillərinə son qoyuldu. Cəbhə xəttində atəşkəs elan edildi. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları çərçivəsində həlli üçün danışıqlara başlandı. Ölkədə ictimai-siyasi sabitlik təmin edildi. Dünyanın aparıcı neft şirkətləri ilə onlarca saziş imzalandı. Neft Fondu yaradıldı. Ölkəmizin iqtisadi və siyasi təhlükəsizliyində böyük əhəmiyyət kəsb edən Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kimi neft və qaz kəmərlərinin çəkilişinə başlanıldı.

Heydər Əliyev Azərbaycanı inkişaf etmiş dövlətlərin, millətini firavan həyat sürən xalqların cərgəsində görmək istəyirdi. Ömrünün son anınadək xalqının gələcək taleyi haqqında düşünürdü.

Ulu öndər Heydər Əliyev siyasətçi və dövlət xadimi kimi ən uca missiyanı gerçəkləşdirərək müstəqil Azərbaycan dövlətinin memarı oldu və bu tarixi öz əməlləri ilə yazdı. Onun həyatı və fəaliyyəti Azərbaycan tarixinin bir hissəsi və bəlağətsiz deyə bilərik ki, bu tarixin ən şanlı səhifələrindəndir. Bu şəxsiyyətin həyatını öyrənmək, onun gördüyü işlərin, başladığı layihələrin tarixi əhəmiyyətini dərk etmək özü böyük bir tarix məktəbini bitirmək deməkdir. Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bir qərinədən artıq dövrdə ölkənin həyatında, xalqın taleyində elə bir əzəmətli rol oynayıb ki, bu, əsrlər boyu unudulmayacaqdır. Azərbaycanın hər bir bölgəsində Heydər Əliyevin quruculuq fəaliyyətinin silinməz izləri var. Heydər Əliyev həyatı boyu həmişə xalqa arxalanmışdı: "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib".

Müstəqil Azərbaycan dövlətinin keçdiyi sınaqlar, dövlətçiliyimizin ən ağır günlərində Heydər Əliyevin göstərdiyi qətiyyət bu sözlərdəki gerçəkliyi dəfələrlə təsdiqləyib. Ulu öndər Heydər Əliyevin Azərbaycan üçün gördüyü işləri sadalamaqla bitib-tükənən deyil. Dahi şəxsiyyət bu gün sıralarımızda olmasa da, onun möhtəşəm işləri, əməlləri, misilsiz xidmətləri hamımıza bəllidir və gözümüz önündədir. Heydər Əliyev fövqəlbəşər bir düha kimi xalqın əbədi məhəbbətini qazandı. Milyonlarla insanın ümid çırağına çevrilərək qəlblərdə əbədi yaşamaq heç də bütün rəhbərlərə, liderlərə nəsib olmur. Hələ sağlığında canlı əfsanəyə çevrilmiş Heydər Əliyev ürəklərdə özünə heykəl ucaldıb. Onun parlaq ideyaları hələ uzun illər boyu gələcəyə gedən yollarımızı işıqlandıracaqdır.

Bütün ömrünü xalqımızın tərəqqisinə və firavanlığına həsr etmiş ulu öndərin həyat və fəaliyyəti bizim üçün örnəkdir, güc mənbəyidir. Bugünkü Azərbaycanın sürətli inkişafının təməli məhz Heydər Əliyev tərəfindən yaradılıb. Bu siyasi kursa Azərbaycanda alternativ yoxdur. Xalqımız xoşbəxtdir ki, ümummilli liderimizin siyasi kursu bu gün onun layiqli siyasi varisi, Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. İnanırıq ki, dövlətimiz milli öndərimiz Heydər Əliyev dühasından bəhrələnən, onun siyasi kursunun ən ləyaqətli davamçısı cənab İlham Əliyevin dövlətçilik bacarığı və müdrik rəhbərliyi sayəsində daha da inkişaf edəcək, müstəqilliyini daha da möhkəmləndirəcəkdir.

Dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri mükəmməl idarəçilik irsi yaratmaqla, gələcək nəsillərin bundan bəhrələnməsi üçün geniş imkanlar açması olmuşdur. Bu da ondan irəli gəlirdi ki, ümummilli lideri xalqımızın həyatının müəyyən dövrü deyil, əbədi taleyi düşündürürdü. Bu səbəbdəndir ki, 2003-cü ildə Azərbaycan xalqı ölkənin gələcək taleyi ilə bağlı onun tövsiyəsinin intizarında olarkən, ulu öndər Azərbaycanın gələcəyini düşünməklə verdiyi çox dəyərli məsləhəti ilə xalqı düz yola istiqamətləndirdi. Böyük şəxsiyyətə sonsuz inam bəsləyən xalq verilən dəyərli tövsiyədən bəhrələnərək düzgün seçim etməklə, Azərbaycan xalqının bitib-tükənməz sevgisini, yüksək etimadını qazanmış möhtərəm Prezidentimiz İlham Əliyevi özünə rəhbər seçdi. Dərin elmi bilikləri, iti zəkası, yüksək erudisiyası, uzaqgörən düşüncəsi, nümunəvi rəhbərlik qabiliyyəti, təvazökarlığı, sadəliyi və ən əsası Heydər Əliyev siyasətinə sədaqəti cənab Prezident İlham Əliyevə xalqın böyük rəğbətini qazandırdığından, o, 11 aprel 2018-ci il tarixdə keçirilmiş Prezident seçkilərində də mütləq səs çoxluğu ilə növbəti qətiyyətli qələbəsini əldə etdi. Sözsüz ki, bu qələbə ulu öndərə və cənab Prezidentə olan misilsiz millət sevgisindən irəli gələn zərurətdən doğurdu. Mustafa Kamal Atatürk demişdir: "Millət sevgisi qədər böyük mükafat ola bilməz."

Heydər Əliyevin böyüklüyü, dövlətçilik sərişdəsi onda idi ki, o, hüquqi dövlət quruculuğu işində humanizm prinsiplərindən yerində və düzgün istifadə etməyi uzaqgörənliklə, müdrikcəsinə bacarırdı. O, hər zaman xalqının yanında idi, hər bir vətəndaşa qayğı ilə yanaşır, həmişə xalqın taleyi haqqında düşünürdü. Dahi şəxsiyyət vətən üçün, xalq üçün doğuldu, ölkənin tərəqqisi, inkişafı, azadlığı, müstəqilliyi üçün cəsarətlə çalışdı. Bununla da xalqın gözündə, qəlbində dağ kimi ucaldı. Məhz buna görə də xalqın öz sədaqətli, dahi övladına məhəbbəti sonsuzdur, əbədidir.

Bu gün Azərbaycan xalqı ona görə xoşbəxtdir ki, dahi şəxsiyyət qurub-yaratdığı, şah əsəri olan müstəqil respublikamızın taleyini layiqli davamçısı cənab İlham Əliyevə əmanət edib. Heydər Əliyev dühasından bəhrələnərək onun siyasi kursunu ləyaqətlə davam etdirən Prezident İlham Əliyevin dövlətçilik bacarığı və rəhbərlik qabiliyyəti sayəsində bu gün müstəqil Azərbaycan dünyada qüdrətli dövlət kimi tanınır. Bir zamanlar "Gün gələcək, Azərbaycan dünyaya günəş kimi doğacaq" fikrini səsləndirəndə sanki dahi lider bu günləri görürdü. Çünki möhtərəm Prezident İlham Əliyev ulu öndərin müəyyən etdiyi inkişaf konsepsiyasını uğurla icra edərək Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə, iqtisadi baxımdan özünü tamamilə təmin edən və heç bir iqtisadi çətinliyi olmayan ölkəyə çevirib.

Millətinə xidməti həyat amalına çevirmiş cənab İlham Əliyev xalq qarşısında verdiyi vədləri əməlləri ilə doğruldaraq hər bir azərbaycanlının Prezidenti olduğunu sübuta yetirdi. Möhtərəm Prezidentin vətəndaşların müraciətlərinə xüsusi həssaslıqla yanaşması, onların ciddi problemləri ilə bağlı məsələləri nəzarətə götürməsi, bir çox hallarda şəxsən qərar qəbul etməklə üzləşdikləri bütün çətinlikləri aradan qaldırması dövlətin və rəhbərinin vətəndaşa verdiyi yüksək dəyərin göstəricisidir.

Heydər Əliyevin müstəqil milli dövlətçiliyimizin formalaşdırılması və gücləndirilməsi strategiyası yeni dövrdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən böyük uğur və yeni nailiyyətlərlə davam etdirilir.

Təbii ki, ölkəmizin hərtərəfli inkişafında və əldə etdiyi ardıcıl uğurlarda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da hərtərəfli fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Onun, daxili və xarici siyasətdə bütün dünyada təqdir olunan fəaliyyəti, ölkəmizdə təhsilin, səhiyyənin, elmin, mədəniyyətin, idmanın və digər sahələrin inkişafında xidmətləri, milli-mənəvi dəyərlərin qorunması və dünyada geniş təbliği istiqamətində gördüyü böyük işlər, sadalamaqla bitməyən mütərəqqi və xeyirxah əməlləri dövlətimizin qüdrətlənməsinə və millətimizin rifahına töhfələr verməkdə davam edir.

Mehriban xanımın dövlətimizin və digər dövlətlərin ali mükafatları ilə təltif olunması, bu nəcib insanın Vətənimiz və xalqımız qarşısındakı müstəsna xidmətlərini və beynəlxalq səviyyədə gördüyü mühüm əhəmiyyətli nəhəng işləri ehtiva etməklə, onlara verilən yüksək dəyərdən irəli gəlir. Mehriban xanımın zəngin elmi bilikləri, dərin düşüncəsi, mükəmməl idarəçilik qabiliyyəti, millətinə, dövlətinə, milli-mənəvi dəyərlərə sadiqliyi, övladlarına məhəbbəti, davranışı və səmimiyyəti, eləcə də bütün qadınlara örnək olan digər müsbət keyfiyyətləri ona həm ölkəmizdə, həm də ölkəmizdən kənarda dərin hörmət və məhəbbət qazandırmışdır.

Qürurumuzu artıran haldır ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ölkədə həyata keçirilmiş, eləcə də sadalaya bilmədiyimiz digər islahatlar və görülən nəhəng işlər sayəsində bu gün Azərbaycanın adı artıq dünyanın demokratik və sürətlə inkişaf edən dövlətlərinin sırasında çəkilir. Ümummilli lider Heydər Əliyevin müdrik siyasətinin özünü hər zaman xalqın birinci xidmətçisi kimi təqdim edən möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi və bu siyasətin xalq tərəfindən dəstəklənməsi Azərbaycanın daha da qüdrətlənəcəyindən xəbər verir.

Əminliklə deyə bilərik ki, şərəfli ömrünü Azərbaycana fəda etmiş dünya şöhrətli siyasətçi, xalqımızın ümummilli lideri Heydər Əliyevin adı dünyanın hər yerində daim dərin hörmətlə çəkiləcək, onun əziz və unudulmaz xatirəsi millətimiz tərəfindən əbədi olaraq xüsusi ehtiramla yad ediləcəkdir.

Bu gün ulu öndərin milli dövlətçilik ideologiyasını doğma Azərbaycanın uğur faktoruna çevirmiş Prezident İlham Əliyev ümummilli liderin yolunu inamla davam etdirir. Məhz İlham Əliyevin qətiyyətli və düşünülmüş siyasəti sayəsində ölkəmizin müstəqil dövlət kimi beynəlxalq arenada mövqeləri daha da möhkəmlənmiş, regionda liderliyi təmin edilmişdir.

Əgər müstəqillik tariximizin Heydər Əliyev dövrü müasir dövlətimizin yaradılması, qorunması, iqtisadi, siyasi və sosial inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi dövrü idisə, İlham Əliyevin rəhbərliyi dövrü həmin kursun daha da genişlənməsi, sürətlənməsi və innovasiyalı inkişaf mərhələsinə qədəm qoyması dövrü kimi xarakterizə edilir.

Xalqımızın qürurverici uğurlara imza atması, ölkəmizin kosmik kluba üzv olması, Bakının beynəlxalq əməkdaşlıq paytaxtına çevrilməsi dövlət başçısı tərəfindən ölkə qarşısındakı strateji hədəflərin və prioritetlərin düzgün müəyyənləşdirilməsinin və dünya dövlətlərinin Azərbaycana günbəgün artan inamının ifadəsidir. Reallaşdırılan siyasət nəticəsində bu gün "Azərbaycan dünyanın müxtəlif kürsülərindən öz sözünü açıq deyir, öz müstəqil siyasətini aparır və öz maraqlarını tam şəkildə qoruyur".

Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin dinamik inkişafı, sürətli tərəqqisi, həyata keçirilən əzəmətli layihələr, Azərbaycanın hərtərəfli yeniləşməsi, modernləşməsi, vətənimizi dünyaya yeni formada təqdim etməyə imkan yaradan müsbət dəyişikliklər ulu öndərin qoyduğu yolun davamının sübutudur. Bu yüksəliş isə Heydər Əliyevin müəyyən etdiyi inkişaf konsepsiyasının alternativsizliyini tam dolğunluğu ilə təsdiq edir.

Müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin adı Azərbaycanın özü qədər əbədi olacaq, onun ideyaları gələcək yollarımıza daim nur ələyəcəkdir. ■